(əvvəli ötən saylarımızda)

**Rayonda əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə ilə 16.8 km uzunluğunda 10-kv-luq, 16.7 km uzunluğunda 0,4 kv-luq hava xətləri, 71 ədəd 10/0,4 kv-luq transformator məntəqəsi əsaslı və cari təmir olunmuşdur. 825 ədəd yeni elektron tipli sayğac quraşdırılmış, 2150 ədəd sayğac yenisi ilə əvəz edilmiş, 10-kv-luq hava xətində 54 ədəd, 0,4 kv-luq hava xətində 271 ədəd metal və dəmir-beton dayaq quraşdırılmışdır. Rayonun Əliabad qəsəbəsi, Bəhmətli, Mişleş, Yuxarı Tala və Aşağı Tala kəndlərinin 60.4 km uzunluğunda 0.4 kV-luq elektrik verilişi xətləri SİP kabel xətləri ilə əvəz edilmişdir və hazırda kabel xətlərinin çəkilişi davam etdirilir.**

Eyni zamanda rayonun yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsin-



Festivalın əsas məqsədi ölkəmizin, eləcə də Zaqatala rayonunun iqtisadi, mədəni və turizm potensialını daha geniş nümayiş etdirməkdir.

**Heydər Əliyev Mərkəzində Ümummilli liderin həyat və fəaliyyətini təbliğ edən rayon ziyalılarının 25 nəfərindən ibarət tədqiqat qrupu muzeyin fondunun zənginləşdirilməsi, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyat və fəaliyyətini, Zaqatala rayonu ilə bağlı materialların toplanması işini də davam etdirmiş, 2019-cu il ərzində Mərkəzi 14250 nəfər fərdi, 11832 nəfər qrup şəklində, cəmi 26082 nəfər**

təbii fəlakətlər və baş vermiş digər hadisələr barədə dürüstləşdirilmiş məlumatların Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, RİAİS proqramına ötürülməsini gündəlik nəzarətdə saxlamış və təmin etmişdir.

### *Keçən il rayonda 50 səyyar qəbul keçirilib*

2019-cu ildə RİHB-nın yerlərdə 50 səyyar qəbul görüşləri keçirilmişdir.

Səyyar qəbullarda 5617 adam iştirak etmiş, 286 tənqidi qeyd və təklif səsləndirilmişdir. Səyyar qəbullar zamanı vətəndaşların qaldırdıqları bir çox məsələlər operativ qaydada yerində araşdırılaraq öz həllini tapmış, bəzi problemlərin həlli ilə bağlı müvafiq tapşırıq və tövsiyyələr verilmiş, müraciətlərin mövcud qanunvericili-

# ZAQATALA: İNKİŞAFIN VƏ GÖZƏLLİYİN ÜNVANI

də də işlər davam etdirilmiş, Sukanal İdarəsi tərəfindən şəhər ərazisində, Çobankol, Bazar, Gözbarax, Muxax, Zəyəm, Üçüncü Tala, Muğanlı və Dağlı kəndlərində yararsız vəziyyətdə olan su xətlərində təmir işləri aparılmış, su xətlərində sızmaların qarşısı alınmış, müxtəlif ərazilərdə 500 metr uzunluğunda yararsız hala düşmüş su boruları dəyişdirilərək yeniləri ilə əvəz edilmiş, Yuxarı Çardaxlar kəndində içməli su xəttinin bərpası tədbirləri həyata keçirilmişdir.




Zaqatala Suvarma Sistemləri İdarəsi tərəfindən rayonun Muxax, Tala, Katex, Alazan və Bəkməz çaylarında 1.4 milyon kubmetr həcmində çay yatağı təmizlənmiş, Zaqatala şəhərinin, Əliabad, Yeni Suvagil, Qımır, Çobankol, Mamrux, Gözbarax və Yuxarı Çardaxlar yaşayış məntəqələrinin qorunması məqsədi ilə Muxax və Tala çayda 1931 m3 daş beton bəndlər təmir edilmiş, 850 m3 həcmində qabion bəndlər quraşdırılmışdır.

### *Təhsil, səhiyyə, mədəniyyət...*

***Hesabat dövründə Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında, Dövlət İdarəetmə və Texnologiya kollecində, Zaqatala Peşə məktəbində, ümumtəhsil və məktəbəqədər təlim tərbiyə müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi, pedoqoji kadrların effektiv və səmərəli fəaliyyətinin təmin edilməsi məqsədi ilə müəyyən işlər görülmüş, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi sahəsində dövlətimiz tərəfindən görülən işlər təhsilin keyfiyyətinin yüksəldilməsinə əlverişli şərait yaratmışdır.***

Azərbaycan Respublikası Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə iyunun 28-də Azərbaycan Respublikasında akredetasiya olunmuş 45-dən çox ölkəni və beynəlxalq təşkilatları təmsil edən diplomatik korpusun nümayəndələri Zaqatalanın tarixi, mədəniyyəti, coğrafi mövqeyi, Iqtisadiyyatı, turizm potensialı və folkloru ilə yaxından tanış olmuşlar. Rayonda səhiyyənin inkişafı sahəsində bir sıra tədbirlər həyata keçirilmiş, 2019-cu il ərzində rayon Mərkəzi Xəstəxanasının həkimləri tərəfindən 230379 nəfər ambulator qəbul, 17832 nəfər evə gediş olmuş, 1540 uşaq doğulmuşdur.

Hesabat dövründə rayonda qeydiyyatda olan 2200 nəfər şəkərli diabeti olan, 456 nəfər vərəmli, 303 nəfər onkoloji, 613 nəfər psixiatrik, 5 nəfər hemofiliyalı xəstəyə müvafiq qaydada müayinə və müalicələr təyin edilmiş, xroniki böyrək çatışmazlığı olan 45 nəfərə mütəmadi olaraq Zaqatala Müalicə Diaqnostika Mərkəzində dializ proseduru aparılmışdır.

### *Səhiyyədə aparılan islahatların*

***tərkib hissəsini təşkil edən istiqamətlərdən biri də icbari tibbi sığortanın tətbiqidir. Respublika prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən ölkə ərazisində tibbi xidmətin təşkili işinin İcbari Tibbi Sığorta Agentliyi tərəfindən aparılması ilə bağlı Rayon Mərkəzi xəstəxanasının həm strukturu, həm də qeydiyyatı qoyulan tələblərə uyğunlaşdırılmışdır.***

İl ərzində Azərbaycan dövlətinin bütün sahələrinin dinamik inkişafı mədəniyyət sahəsinin də inkişafını sürətləndirmiş, milli-mənəvi dəyərlərimizin qorunması, gənclərimizdə vətənpərvərlik hisslərinin artırılması məqsədilə rayonda tarixi günlər, əlamətdar hadisələr və bayramlarla əlaqədar müxtəlif tədbirlər həyata keçirilmiş, dövlət əhəmiyyətli günlər münasibəti ilə geniş bayram şənlikləri, konfranslar keçirilərək konsert proqramları təşkil olunmuş, müxtəlif sərgilər nümayiş etdirilmiş, kompazisiyalar, ədəbi-bədii gecələr təşkil edilmişdir.

Zaqatala rayonunda kənd təsərrüfatı üçün ənənəvi sahələrdən olan fındıqçılığın, həmçinin qərzəkli meyvəçiliyin daha geniş təbliğ edilməsi məqsədilə Rayon icra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət, Kənd Təsərrüfatı Nazirliklərinin və ATT ASC-nin dəstəyi ilə sentyabr ayının 28-də keçirilmiş "Beynəlxalq fındıq, qoz, şabalıd" festivalında ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinin rəhbər və təmsilçiləri, nazirlik və dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, həmçinin fındıq istehsalçıları və ixracatçıları, şəhərin qonaqları və rayon sakinləri iştirak ediblər.

**ziyarət etmişdir. 2019-cu il Zaqatala idmançıları üçün də uğurlu olmuş, rayonda gənclər və idman sahəsində müxtəlif tədbirlər həyata keçirilmiş, bu tədbirlərə yüzlərlə yeniyetmə və gənc cəlb olunmuşdur.**

### *Qanunçuluğun qorunması*

Azərbaycan Respublikasında insan hüquqlarının inkişafına xidmət edən iqtisadi inkişaf proqramlarının və sosial layihələr üzrə tədbirlərin 2019-cu ildə də davam etdirilməsi ölkə əhalisinin sosial rifahına xidmət etməklə yanaşı, dövlət idarəçiliyi sistemində bürokratik əngəllərin aradan qaldırılmasında və müasir dövlət-vətəndaş münasibətlərinin yeni inkişaf mərhələsinə keçməsində əhəmiyyətli rol oynamışdır.

Rayonda korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, açıq hökümətin təşviqi ilə bağlı tədbirlərin icrası təmin edilmişdir. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində ciddi maneə olan süründürməçiliyə, bürokratik əngəllərə, məmur özbaşınalığına, vətəndaşların müraciətlərinə və problemlərinə laqeyd münasibətə qarşı kəsərli tədbirlər görmüşdür.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"na müvafiq olaraq, narkomanlığın qarşısının alınması ilə bağlı təbliğat və maarifləndirmə işlərinin gücləndirilməsi və davamlılığının təmin edilməsi məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə 25 noyabr tarixində "Narkomanlığa qarşı mübarizədə gənclərin rolu" mövzusunda tədbir keçirilmişdir.

**Qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizə işinin təşkili sahəsində rayonun hüquq-mühafizə orqanları ilə əlaqəli fəaliyyət təmin olunmuş, profilaktika, əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilmişdir. 2019-cu il ərzində rayonda 108 cinayət hadisəsi qeydə alınmış, kompleks şəkildə aparılmış tədbirlər nəticəsində cinayətlərin açılması 93,5 faiz olmuşdur.**

Ordu quruculuğunun möhkəmləndirilməsi, dövlətin hərbi potensialının gücləndirilməsi istiqamətində aparılan uğurlu siyasət nəticəsində gənclərdə vətənpərvərlik hissləri güclənmişdir. Azərbaycan Respublikası Prezidentinin "Gənclərin həqiqi hərbi xidmətə çağırışın keçirilməsi haqqında" müvafiq Fərmanlarının rayonda icrası təmin edilərək 2019-cu il ərzində 485 nəfər həqiqi hərbi xidmətə yola salınmışdır. 2019-cu il ərzində Rayon İcra Hakimiyyəti ərazidə ictimai sabitliyin qorunması,



yə uyğun şəkildə cavablandırılacağı barədə vətəndaşlara məlumat verilmişdir.

***Rayon İcra Hakimiyyəti şəhid ailələri və Qarabağ əlilləri, eləcə də zəruri-sosial durumu aşağı olan vətəndaşların qayğılarını daim diqqətdə saxlayır, müxtəlif səbəblərdən maddi və mənəvi ziyan çəkmiş şəxslərə yardımlar göstərir. 2019-cu ildə zəruri sosial-iqtisadi durumu aşağı olan, eləcə də müxtəlif səbəblərdən (yanğın, təbii fəlakət, müalicə üçün və s.) zərər çəkmiş 15 vətəndaşa 8710 manat maddi yardım göstərilmiş, 18 nəfər əlilə patronaj təyin edilmiş, 15 nəfərə qəyyum təyin edilməsinə dair sərəncamlar verilmişdir.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ötən il Azərbaycan Respublikasının nazirləri, nazir müavinləri, komitə sədrləri və mərkəzi icra orqanlarının digər rəhbərləri 17 dəfə Zaqatala rayonunda vətəndaşları qəbul etmiş, onların şikayət və təkliflərini dinləmiş, müraciətlərin həlli istiqamətində müvafiq tapşırıqlar vermişlər. Bundan başqa möhtərəm Prezidentimizin tapşırığının icrası olaraq 25.04.2019-cu il və 14.11.2019-cu il tarixlərində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçiləri tərəfindən Zaqatala Rayon İcra Hakimiyyətində vətəndaşların qəbulları keçirmiş, onların təklif, ərizə və şikayətlərinin icrası istiqamətində müəyyən tədbirlər görülmüş, bəzi müraciətlər operativ qaydada öz müsbət həllini tapmış, bir çox müraciətlər icra olunmaq üçün aidiyyatı nazirlik və təşkilatlara göndərilmişdir.

**Ölkə Prezidentinin bütün sahələrdə həyata keçirdiyi islahatlar, xalqın rifahına xidmət edən fərman və sərəncamları, imzaladığı qanunlar vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanmış, son nəticədə ölkənin inkişafına, xalqın güzəranının yaxşılaşmasına, cəmiyyətdə demokratik dəyərlərin daha da güclənməsinə yönəlmişdir.**

**Məzahir ƏHMƏDZADƏ**